# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# “NAXÇIVAN” UNİVERSİTETİ
# FƏNN SİLLABUSU

Təsdiq edirəm: ___________ N.M.Məmmədova

Tarix: __07__ sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Öyrədilən əsas dil (Fonetika) 5 kredit |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Filologiya |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | I |
| | **Semestr** | I |
| | **Təlimçi** | Arifə Əziz qızı Zeynalova |
| | **e-mail** | arifezeynalova9@gmail.com |
| | **Telefon** | 050-543-59-75 |
| | **Dərs günləri və saatları** | I gün II saat (m) |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003<br>2. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı,1985<br>3. A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı,1982<br>4. B.Xəlilov. Azərbaycan dilinin fonetikası. Bakı, 2014<br>5. M.Yusifov. Azərbaycan dili fonetikasının əsasları. Bakı, 2012 | |
| **İstifadə ediləcək web səhifələr** | 1. http://lib.bbu.edu.az/files/book/1057.pdf<br>2.https://www.repk.az/uploads/books/24.pdf<br>3.http://anl.az/el/Kitab/2017/07/cd/Azf-296978.pdf | |
| **Fənnin xülasəsi** | “Müasir Azərbaycan dili” fənni filologiya fakültələrində tədris olunur və bu fənn tələbələrə Azərbaycan dilinin lüğət tərkibini, sözlərin leksik-semantik mənalarını, dilin lüğət fondunu və s. haqqındakı nəzəri biliklərin mənimsədilməsinə xidmət edir. | |
| **Fənnin məqsədləri** | “Müasir Azərbaycan dili” fənninin məqsədi tələbələrdə Azərbaycan dilinin, Azərbaycan sözlərinin, Azərbaycan frazeologiyasının leksik xüsusiyyətlərini, bunlar haqqında ilkin nəzəri biliyin formalaşmasına kömək etməkdir. “Müasir Azərbaycan dili” fənni tələbələrin sonradan bir sıra nəzəri, habelə müəyyən praktik fənlərin tədrisi zamanı rast gələ biləcəkləri müddəaları, nəzəri fikirləri, terminləri və s. daha effektiv qavramaları və yadda saxlamaları üçün ümumi baza yaradır. | |
| **Öyrənmə nəticələri** | Azərbaycan ədəbi dilinin fonetikası, ümumən fonologiya, dilin səs sistemi, fonetik qanunlar, heca, vurğu, əlifba, orfoepiya və orfoqrafiya tədqiqi məsələləri öz əksini tapıb. | |
| **Tədris metodları** | **Mühazirə** | Fənnə aid ümumi xarakterli məlumatlar verilir. |
| | **Qrup müzakirəsi** | Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirəsi aparılır. |
| | **Təcrübi məşğələ** | Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilir. |
| | **Simulyasiya** | Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir |
| | **Layihə** | Tələbələrə dərsə aid fərdi laborator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir |

| | | |
|---|---|---|
| | **Digər** | Tədris prosesində fərdiləşdirilmiş (oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir |
| **Qiymətləndirmə** | **Mövzunun mənimsənilməsi** | **Faiz nisbəti (%) və ya bal** |
| | Balların maksimum miqdarı | 100 bal |
| | 1. Semestr ərzində toplanmış maksimum bal | 50 bal (50%) |
| | - Dərsə davamiyyətə görə maksimum bal | 10 bal (10%) |
| | - Tələbələrin sərbəst işinə görə maksimum bal | 10 bal (10%) |
| | - Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal | 30 bal (30%) |
| | **Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.** | |
| | 2. İmtahan nəticələrinə görə maksimum bal | 50 bal (50%) |
| | 3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” | |
| | **Cəmi:** | **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Tapşırıq olaraq tələbələrə aşağıda qeyd olunmuş sərbəst mövzular verilir və semestr ərzində qiymətləndirilir.<br>**Sərbəst iş mövzuları:**<br>1. Fonem. Fonem variantları<br>2. Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları<br>3. Azərbaycan ədəbi dili və onun dövrləşməsi<br>4. Vurğunun növləri.Məntiqi vurğu<br>5. Funksional üslublar, bədii üslub<br>6. Azərbaycan dilinin türk dilləri ailəsində yeri<br>7. Fonetik hadisələr. Assimilyasiya<br>8. Sait səslər və onların xüsusiyyətləri<br>9. Fonetik qanunlar. Ahəng qanunu<br>10. Heca, onun növləri və tipıəri<br>11. Dialekt və şivələrin ədəbi dilə təsiri<br>12. Əlifba, onun tarixi və inkişaf mərhələləri<br>13. Yazı, onun tarixi<br>14. Orfoqrafiya məsələləri<br>15. Orfoepiya və onun dildə əhəmiyyəti<br>16. Azərbaycan dilinin norma və üslubları<br>17. Rəsmi-işgüzar üslub<br>18. M.F.Axundov və onun əlifba fəaliyyəti | |

| | | | |
|---|---|---|---|
| | | 19. Azərbaycan ədəbi dilinin inkişafında görkəmli şəxsiyyətlərin rolu<br>20. Samit səslər və onların təsnifi prinsipləri<br><br>**Təqdimat:** Slayd formasında hazırlanaraq sunulan təqdimatlar “GÖRÜRƏM, EŞİDİRƏM VƏ YADDA SAXLAYIRAM” prinsipinə əsasən qiymətləndirilir. | |
| **Qaydalar** | | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. | |
| **Tematik plan** | | | |
| **Mühazirə** | | | |
| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |
| **1** | 19.09.22 | 1. Müasir Azərbaycan ədəbi dili fənninin mövzusu, vəzifəsi. Azərbaycan dilinin türk dilləri ailəsində yeri və rolu.<br>Azərbaycan dili haqqında qısa məlumat. Aərbaycan ədəbi dilinin formalaşdığı, inkişaf etdiyi və zənginləşdiyi dövr. Azərbaycan ədəbi dilinin milli ədəbi dil kimi formalaşması. Türk dillərinin oğuz qrupunda Azərbaycan dilinin işlənmə yeri, mövqeyi, fonetik xüsusiyyətlər, leksik, qrammatik xüsusiyyətləri. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 10-52 |
| **2** | 26.09.22 | Fonetika. Səs, hərf.<br>Müasir dilin fonetik sisteminin tədqiqində bir sıra üsullardan istifadə olunur: a) müşahidə üsulu, b) təcrübi üsul. a) Müşahidə üsulu. Fonemin necə səslənməsini subyektin özünü bilavasitə müşahidə etməsi ,eyni zamanda, subyektiv üsul və onun yolları. Belə iş aparılarkən şəxs eşitmək və hiss etməklə bu və ya digər hadisəni şərhi. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 52-54 |
| **3** | 03.10.22 | Fonem. Fonem variant.<br>**Fonem** və onun əsas əlamətləri (dilin müstəqil bir həlqəsi olması, söz daxilində m məna fərqi yarada bilən ən kiçik dil vahidi kimi, fonemin hər bir dilin məxsusi əlamətlərinə görə müəyyənləşməsi, bir fonemin bir, iki, hətta üç səsdən ibarət ola bilməsi, fonemlər silsiləsinin qarşılıqlı cütlükdən ibarət olması və s.) fonem variantları. Fonemi müəyyənləşdirmək yolları. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 74-75 |

| | | | |
|---|---|---|---|
| **4** | 10.10.22 | **Fonetik transkripsiya.** Səsin akustik və fiziki xususiyyətləri**.** Fonetik quruluş dilin tarixi inkişafının məhsulu kimi. Azərbaycan dilinin ümumi fonetik xüsusiyyətləri (ahəng qanununun mövcudluğu, iki saitin yanaşı gəlməməsi, [k'] samitinin rus dili, uzun saitlərin ərəb dili vasitəsilə daxil olması, j samitinin milli olmaması və s. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 57-59 |
| **5** | 17.10.22 | Səslərin təsnifi. Sait səslər.<br><br>**Əmələgəlmə yerinə** və ya dilin üfüqi vəziyyətinə görə (dilarxası (arxasıra), dilönü (önsıra) və dilortası) saitlər. **Əmələgəlmə üsuluna** və ya dilin şaquli vəziyyətinə görə (qapalı, açıq və yarımqapalı) saitlər. **Dodaqların vəziyyətinə görə** (dodaqlanan və dodaqlanmayan) saitlər. **Məxrəc sabitliyinə görə** (təkavaz (monofton) və cütavaz (diftonq) saitlər. **Kəmiyyətə görə** (adi uzun və qısa) saitlər.<br>**Gərginliyə görə** ( gərgin və qeyri-gərgin) saitlər. Azərbaycan dili saitlərinin əsas xüsusiyyətləri.<br>dilində taleyi). Azərbaycan dili saitlərinin müxtəlif sait və samitlərlə qonşuluqda işlənməsi. Azərbaycan dili saitlərinin qarşı-qarşıya qoyulması sistemi (qapalı saitlər – açıq saitlər, dilönü saitlər – dilarxası saitlər və s.) | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 77-83 |
| **6** | 24.10.22 | Samit səslər və onların xüsusiyyətləri. Müasir Azərbaycan ədəbi dilinin samit səsləri. Samit səslərin bölgüsü. I. Əmələgəlmə yerinə görə samitlərin bölgüsü. II. Əmələgəlmə üsuluna görə samitlərin bölgüsü. III. Səs tellərinin vəziyyətinə görə samitlərin bölgüsü. IV. Tərkibinə görə samitlərin bölgüsü. Samit səslərin xarakteristikası. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 83-93 |
| **7** | 31.10.22 | Fonetik hadisələr. Assimilyasiya.<br>Fonetik hadisələrin dilin səs qabığında Azərbaycan dilinin təbiəti ilə bağlı baş verən ötəri, keçici hallar olması.<br>**Uyuşma (assimilyasiya).** Bir səsin başqa bir səs təsir edərək onu müxtəlif cəhətdən özünə uyğunlaşdırması. Uyuşmanın növləri: 1. Səslərin formalaşmasında **fəal iştirak edən üzvlərin vəziyyətinə** görə: a) səs tellərinin vəziyyətinə görə, b) dilin | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 93-96 |

| | | | |
|---|---|---|---|
| | | vəziyyətinə görə, b) damaq pərdəsinin vəziyyətinə görə. 2. **Davamlılığa görə:** a)təsadüfi uyuşma, b) daimi uyuşma. 3. **Keyfiyyətə görə:** a) tam uyuşma, b) natamam uyuşma. 4.İstiqamə görə: a) irəli uyuşma, b) geri uyuşma.<br>**Səs fərqləşməsi (dissimilyasiya).** Bir səsin başqa bir səsə təsir edərək onu oz həmcinsindən uzaqlaşdırması. Yanaşı və uzaq samitlərdə baş verə bilən dissimilyasiya, tam və natamam dissimilyasiya.<br>**Səsartımı (proteza).** Bu hadisənin dilimizin fonetik təbiətinə görə baş verməsi. Formaları: 1) Samitartımı: a) yazıda sabitləşən samitartımı b) yazıda samitləşməyən samitartımı. 2) Saitartımı: Söz başında: a) yanaşı samitlər kardırsa: *şkaf [işkaf], stəkan [istəkan];* b) yanaşı samitlərdən biri və hər ikisi cingiltilidirsə: *qram[qıram], klub[kulub];* c) söz başında r samiti olduqda: *Rza [irza]*. Söz sonunda: yanaşı samitlə bitən sözün axırıncı zamiti r olduqda: *dövr dövür, teatr tiyatır.* Bəzi bu tip ikihecalı sözün artıq ikihecalı sözə çevrilməsi və yazıda da sabitləşməsi: *səbir, fikir, sətir, qəbir.*<br>**IV.Səsdüşümü (eleziya).** Formaları: 1) yazıda sabitləşən: 2) yazıda sabitləşməyən, ədəbi tələffüz üçün norma sayılan.<br>**V.Yerdəyişmə (metateza).** Daha çox adi tələffüzdə və dialektlərdə özünü göstərməsi, Azərbaycan dilində r samitinin söz və heca başında işlənməməsi səbəbindən baş verən metateza | |

| | | | |
|---|---|---|---|
| **8** | 07.11.22 | Fonetik qanunlar. Ahəng qanunu.<br>Daha çox saitlərin uyuşması kimi başa düşülməsi. Saitlərlə samitlərin və samitlərin öz arasında da mövcudluğu. M. Kaşğari ahəng qanunu haqqında (-*maq, -mək* şəkilçisi ilə bağlı).<br>**Ahəng qanununun növləri**: Ahəng qanunu irəli uyuşmanın bir halı kimi.<br>**Saitlərin ahəngi**. a) dil ahəngi (damaq ahəngi) – dilə görə fərqlənən saitlərin ahəngi: arxa sıra (qalın) saitlərin ahəngi (*qamışlıqların, odunluqdandır, oğlanlardansan* və s. ); ön sıra (incə) saitlərin ahəngi (*çətirlərin, çörəkçilərdən, tütünçülərin* və s.). b) dodaq ahəngi: dodaqlanan saitlərin ahəngi (*qoyunçuluğun, tütünçülük*); dodaqlanmayan saitlərin ahəngi (*çətirlərindən, başlanacaqdı* və s.). Azərbaycan dilindəki kök və şəkilçilərin saitlərin ahəngi baxımından bölgüsü: a) ancaq dil ahənginə tabe olanlar – iki cür yazılanlar (*adamlar, ətirlər*); b) dil və dodaq ahənginə tabe olanlar – dörd cür yazılan şəkilçilər (*qapının, odunumuz*); c) ahəngə tabe olmayanlar – bir cür yazılanlar (*dayımgil, inqilabi, əməkdaş*).<br>**Saitlərlə samitlərin ahəngi:** a) Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi. Bunun arxa sıra saitlərlə (a, ı, o, u) arxa sıra samitlərin (ğ, x, q, k' ) və ön sıra saitlərlə (ə, e, i, ü, ö) ön sıra samitlərin (k, g, x') uyğunlaşması kimi başa düşülməsi. Bu qanunun bəzi şəkilçilərdə (lıq,-lik,luk,-lük; -ıq; -maq,-mək və s.) rus dilindən keçmiş bir neçə sözdə də (kino, komuna) özünü göstərməsi. b) Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi. Bu və ya digər şəraitdə saitlərlə yanaşı düşən kar samitlərin cingiltiləşməsi prosesi kimi özünü göstərməsi:<br>**Samitlərin ahəngi.** Geri uyuşma kimi özünü göstərməsi: hər hansı samitin | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 93-106 |

| | | | |
|---|---|---|---|
| | | özündən əvvəl gələn samiti kar və cingiltili olmasına görə özünə uyğunlaşdırması. Kar və cingiltili qarşılığı olan samitlərin söz daxilində yalnız öz həmcinsləri ilə yanaşı işlənməsi: kar samit - kar samit (*üst, göstər, tapşır, yaxşı*), cingiltili samit – cingiltili samit (*özgə, üzgün, güzgü, oğru*). Kar qarşılığı olmayan samitlərin istənilən samitlə yanaşı gələ bilməsi (*alt, dörd, ört, indi, sərt*). | |
| **9** | 14.11.22 | Heca. Növləri və tipləri.<br>Nitqin fonetik parçalarından (fonetik ibarə, fonetik qitə, heca) biri kimi. Heca haqqında ümumi məlumat.<br>Tərkibinə görə hecanın növləri: saf heca, qovuşuq heca (örtüsüzqapalı, örtülü-qapalı, örtülü-açıq). Qovuşuq hecaların samitlərin sayından və mövqeyindən asılı olaraq tipləri.<br>Heca tiplərində samitlər: a) küylü heca, b) sonorlu heca, c) küylü-sonorlu heca və s.<br>Heca tiplərində saitlər: a) qalın saitli hecalar, b) incə saitli hecalar. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 112-116 |
| **10** | 21.11.22 | Heca üçbucağı.<br>Heca üçbucaqları. Səslərin güc dərəcəsinə görə heca tipləri: a) nöqtə heca, b) maili ox heca, c) bucaq heca.<br>Nitq axınında hecalanma meyarları. | Müasir Azərbaycan dili II cild. Bakı, 2007 səh. 74-89 |
| **11** | 28.11.22 | Vurğu və onun növləri. Məntiqi vurğu. Müasir Azərbaycan ədəbi dilində vurğu. Vurğunun növləri. Heca vurğusu. Məntiqi vurğu. Həyəcanlı vurğu. Sərbəst vurğu. Sabit vurğu. Vurğu qəbul etməyən şəkilçilər. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 112-116 |
| **12** | 05.12.22 | Orfoqrafiya, onun qaydaları və prinsipləri. Azərbaycan orfoqrafiyası orfoqrafiya haqqında məlumat. Orfoqrafiya sözlərin bütün qrammatik formaları üçün vahid yazı qaydaları. Azərbaycan orfoqrafiyasının prinsipləri. Azərbaycan orfoqrafiyasının fonetik prinsipi. Azərbaycan orfoqrafiyasının morfoloji prinsipi. Azərbaycan orfoqrafiyasının ənənəvi prinsipi. Şəkilçilərin yazılışı. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 175-194 |
| **13** | 12.12.22 | Orfoepiya, tələffüz qaydaları.<br>Azərbaycan ədəbi dilinin orfoepiyası. Orfoepiya anlayışı. Orfoepiyanın əhəmiyyəti. Orfoepiyanın orfoqrafiya ilə əlaqəsi. Azərbaycan dilinin orfoepiyası, | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 117-132 |

| | | | |
|---|---|---|---|
| | | onun formalaşması və inkişafı tarixinə dair. Müasir Azərbaycan dili orfoepiyasının əsas qaydaları. Saitlərin tələffüzünə aid qaydalar. 2. Samitlərin tələffüzünə aid qaydalar. 3. Bəzi qrammatik formaların tələffüzünə aid qaydalar. Bəzi qrammatik formaların tələffüzünə aid qaydalar. | |
| **14** | 19.12.22 | Yazı, onun tarixi, inkişafı mərhələləri. Yazının növləri. Müasir Azərbaycan yazısı, orfoqrafiyası.<br>Yazının əmələ gəlməsi. Azərbaycan yazısı yazı haqqında ümumi məlumat. Yazının tipləri və inkişafı.<br>Şəkli (piktoqrafik) yazı. 2. Fikri (ideoqrafik) yazı. 3. Heca (silloqrafik) yazısı. 4. Səs (fonoqrafik) yazısı. Azərbaycan yazısının tarixindən. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 135-145 |
| **15** | 26.12.22 | Əlifba haqqında ümumi məlumat.<br><br>Azərbaycan yazısının əlifbası əlifba haqqında ümumi məlumat. Müasir azərbaycan əlifbası. Azərbaycan əlifbasının tarixinə dair qısa məlumat. 1. Qədim milli türk əlifbalarından istifadə olunması. 2. Ərəb əlifbasından istifadə olunması. 4. Kiril qrafikası əsasında yaradılmış azərbaycan əlifbası. 5. Yenidən latın qrafikası əsasında hazırlanmış Azərbaycan əlifbası. | A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003 səh. 145-167 |
| | | **Cəmi: 30 saat** | |
| **Fənn müəllimi:** | | **dos. A.Ə.Zeynalova** | |